# Dövlət Komitəsi COVID-19 pandemiyasının məişət zorakılığı hallarının artmasına təsiri barədə məlumat yayıb



Bu gün dünyada tüğyan edən COVID-19 pandemiyası bir çox sahələrdə əsaslı çətinliklər yaratmaqdadır. Bir tərəfdən insanlar sağlam qalmaq üçün gözəgörünməz düşmənlə - virusla mübarizə aparır. Digər tərəfdən isə dünya iqtisadiyyatı iflas ərəfəsindədir, bəşəriyyət yeni ictimai, iqtisadi və sosial təlatümlər içərisindədir. Bütün bu hadisələrin fonunda narahatedici məqamlardan biri də ailədaxili münaqişələrin və məişət zorakılığı (bu və ya digər formasının) hallarının baş verməsidir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin COVID-19 pandemiyasının məişət zorakılığı hallarının artmasına təsiri barədə yaydığı məlumatda yer alıb.

Məlumatda deyilir: "Pandemiyalar da daxil olmaqla, istənilən böhran vəziyyətində gender əsaslı zorakılıq halları artır və bundan daha çox qadınlar və qızlar əziyyət çəkir. Sual oluna bilər ki, necə? Axı, qadın ən etibarlı yerdə - öz evindədir. Adətən qeyd edirlər ki, qadınların əksəriyyəti yad insanlar tərəfindən zorakılığa məruz qalır. Onlar öz evlərində tamamilə müdafiə olunmuş şəxslərdir. Lakin reallıqda isə biz bunun əksinin şahidi oluruq. Belə ki, tədqiqatlar da sübut edir ki, qadınların əksəriyyəti məhz tanıdıqları insanlar tərəfindən zorakılığa məruz qalır. Məlumat üçün bildiririk ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən yaradılan Məişət Zorakılığı üzrə Məlumat Bankına yığılan məlumatların təhlili də göstərir ki, ailədə baş verən zorakılıq haqqında vəziyyətin ən son həddində polis və ya digər orqanlara məlumat verilir. Bir çox hallarda isə bu haqda uzun müddət informasiya verilmədiyindən zorakılığın ağır nəticələrini müşahidə edirik. Bu isə öz növbəsində ailə-məişət zorakılığının qurbanlarının sayına təsir edir. Yığılan məlumatlara əsasən, qadınlara qarşı zorakılığı törədənlər daha çox öz həyat yoldaşlarıdır, bu 68,4 faizdir. Qadınların 12,1 faizi keçmiş həyat yoldaşları, 11,9 faizi isə qeyri-rəsmi yaşadığı kişi tərəfindən zorakılığa məruz qalır. Gender əsaslı zorakılıq halları demək olar ki, bütün dünya ölkələrində çoxluq təşkil edir. Aparılan bir çox araşdırmalar nəticəsində məlum olub ki, hər 3 qadından biri nə vaxtsa zorakılığa məruz qalıb, hər 3 dəqiqədən bir ən azı bir qadın öldürülür.

Bu qeyd etdiyimiz faktlar pandemiyadan əvvəl olan göstəricilərdir. Əlbəttə ki, COVID-19-un qarşısını almaq üçün sosial təcrid və karantin vacibdir. Lakin mütəxəssislər bildirirlər ki, bu, ailə üzvləri arasındakı münaqişələr, xüsusilə də qadınlara qarşı qəddar davranışların, o cümlədən qlobal səviyyədə məişət zorakılığının artmasına səbəb ola bilər. Bəzi ölkələrdə zorakılığa qarşı dəstək xidmətinə müraciət edən qadınların sayı iki dəfə artıb. Bütün ölkələrdə dəqiq statistika aparılmasa da, İspaniyanın Kataloniya bölgəsində məişət zorakılığının 20 faiz, Kiprdə 30 faiz və Braziliyada 50 faiz artması məlumdur. Çində ailədaxili şiddətin 90 faizi izolyasiyada saxlanılan cütlüklər arasında qeydə alınan faktlardan ibarətdir. Həmçinin İtaliya, Fransa, Almaniya, Türkiyə, Hindistan və digər ölkələr də izolyasiya tədbirlərinin ailədaxilində zorakılıq üzrə göstəricilərə ciddi təsir göstərdiyi vurğulanır. Hətta bu sahə üzrə ekspertlər ailədə sosial izolyasiya səbəbindən zorakılığa məruz qalma hallarının artacağını qeyd edirlər. İlk növbədə, biz risk qruplarını ayırd etməliyik. O zaman belə bir təsnifat vermək olar:

1. Sosial izolyasiya rejimindən də əvvəl zorakılıq halları qeydə alınan və müşahidə edilən münaqişəli ailələr;

2. Pandemiyadan irəli gələrək həyat səviyyəsi pisləşən ailələr; (Bir çox hallarda ailənin iqtisadi vəziyyəti qarşılıqlı münasibətlərdə zəiflik yarada, həmin insanların davranışlarında aqressiyanı artıra bilər ki, bu zorakılıq üçün bir əsasa çevrilə bilər)

3. Xüsusi qayğıya ehtiyacı olan, sağlamlıq imkanları məhdud ailə üzvü ilə birgə yaşayan ailələr; (Belə şəxslərin immun sisteminin nisbətən zəif olması ailənin digər üzvlərində narahatlığı artırır, nəticədə zorakı davranışlar, bir- birini qarşılıqlı ittiham etmələr baş verir)

4. Psixoloji xəstəlikdən əziyyət çəkənlər yaxud belə problemi olan ailə üzvü ilə birgə yaşayan şəxslərdir.

Qeyd etmək lazımdır ki, hətta BMT-nin Baş Katibi Antonio Quterreş bütün ölkələri COVID-19 pandemiyası zamanı artan gender əsaslı zorakılıq hallarına qarşı tədbirlər görməyə çağırıb. COVID-19 infeksiyasının yayılması qlobal pandemiyaların fəsadlarının gender bərabərliyi baxımından təsirinin təhlil edilməsi aktual məsələlərdən biridir. Çünki, hazırda bütün dünyada aidiyyəti orqan və təşkilatların, hətta sığınacaqların da pandemiya ilə əlaqədar olaraq iş yükü daha da artıb. Bəzi hallarda məişət zorakılığı və onun qurbanlarına ediləcək yardımlar nisbətən arxa plana keçib. Buna görə də COVID-19 böhranı, eləcə də digər ekstremal şəraitdə gender əsaslı zorakılığa qarşı əlaqələndirilmiş (multisektoral) cavab tədbirlərinin və müvafiq yönləndirmə mexanizmlərinin mövcud reallığa uyğun şəkildə təkmilləşdirilməsi və icmaların bu barədə məlumatlandırılması zərurəti yaranır. Beləliklə, gender əsaslı zorakılığa məruz qalmış və ya bu risklə üzləşən qadın və qızların hüquqlarının böhran vəziyyətində də dayanıqlı şəkildə müdafiəsini təmin etmək günün vacib məsələlərindən birinə çevrilməkdədir.

Əgər biz hazırkı vəziyyəti gender bərabərliyi nöqteyi nəzərindən təhlil etsək görərik ki, qadınlar daha həssas durumdadırlar. Belə ki, qadınlar hazırda dünya üzrə səhiyyə və sosial xidmət işçilərinin 70 faizini (Azərbaycanda isə 77,6 faiz) təşkil edir. İstər-istəməz bu qadınlar karantin rejiminə baxmayaraq, iş fəaliyyətini davam etdirirlər. Digər tərəfdən isə onların ailə-məişət zəminində iş yükü daha da artır (məsələn, təhsil müəssisələrinin müvəqqəti bağlanması şəraitində uşaqların təhsili ilə məşğul olmaq, qadının ailə üzvlərinə göstərdiyi qayğının belə dövrlərdə daha da artması və s). O zaman ailə üzvləri bir-birinə qarşı anlayışla, hörmətlə yanaşmalı, tolerantlıq nümayiş etdirməlidirlər. Əlbəttə ki, bunun üçün bir neçə məsələni nəzərdən keçirmək lazımdır: birincisi, ailədə qadın və kişinin rol və vəzifə bölgüsü olmalıdır ki, qadın da özünü bir şəxsiyyət kimi formalaşdıra bilsin. Kişi yalnız ailəni iqtisadi cəhətdən təmin edən bir şəxs deyil, onun ər və ata kimi sosial vəzifə və öhdəlikləri var. Bu həm də sosial və mənəvi məsuliyyət hissinin bölüşdürülməsidir. Nəzərə alsaq ki, bu müddətdə kişilər müvəqqəti olaraq işləmirlər və ya həm qadın, həm də kişi işləmir. Onda ev işlərini görməkdə və uşaqlara dərslərini oxumaqda, ev tapşırıqlarını həll etməkdə, birgə vaxt keçirməkdə plan hazırlansa daha yaxşı olar. Məsələn, qadın mətbəx işlərini yerinə yetirəndə, kişi uşaqların dərsləri ilə məşğul ola və ya uşağı ilə stolüstü oyun-oynaya bilər. Mühüm məsələlərdən biri də patriarxal mədəniyyət və tərbiyənin və yanlış stereotiplərin təsirindən yaranan "kişi hər zaman haqlıdır", "onun istəyi əsasdır", "kişiyə olar, qadına olmaz" və s. bu kimi birtərəfli və səhv yanaşmaların mövcudluğudur ki, bu da gender əsaslı zorakılıq halların baş verməsinə gətirib çıxarır. Ailədə ünsiyyətin düzgün qurulması, bütün üzvlərə bərabər münasibətin göstərilməsi də ailədə sülhün və əmin-amanlığın yaranmasında mühüm şərtlərdəndir. Səbirli olmaqla, bir-birinin fəaliyyətinə qarışmamaqla, boş vaxtı səmərəli keçirməklə insanlar zorakı davranışlardan qaça bilərlər.

Doğrudur, Azərbaycanda hələ ki, dünya ölkələrində olduğu kimi, zorakılıqla bağlı böyük statistik göstəricilər qeydə alınmayıb. Lakin KİV-də ailə-məişət zəminində baş verən zorakılıq halları haqqında xəbərlər, sosial şəbəkələrdə yayılan məlumatlar, eyni zamanda, Komitəyə edilən müraciətlə, apardığımız müşahidələr bizi narahat edir. Təəssüflər olsun ki, bu gün dünyada gedən bu neqativ tendensiya ölkəmizdə də sezilməkdədir. Biz bir dövlət qurumu olaraq, çalışırıq ki, belə halların sayı artmasın. Regionlarda və Bakıda fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzləri və Qadın Resurs Mərkəzləri tərəfindən "ailələrə zəng kompaniyası" keçiririk. Xüsusilə də həssas və risk qrupundan olan ailələr və onların üzvlərinə psixoloji, hüquqi xidmətlər göstəririk. Lazım olduqda sosial işçilər həmin ailələrə səfər edir, yerində vəziyyəti araşdırıb, vətəndaşları aidiyyəti dövlət qurumlarına yönəldirik. Sosial təcrid dövründə müraciətlər əsasən emosional gərginlik keçirmə, tənhalıqdan qorxma, panik atak keçirmə, uşaqların davranış pozuntuları, adaptasiyası və s. məsələlərlə bağlı olub. Müraciətçilər peşəkar mütəxəssislər tərəfindən konsultasiya edilib.

Sosial təcrid dövründə məişət zorakılığına və ya gender əsaslı zorakılığa məruz qalmış insanların hüquqlarının müdafiəsi ilə bağlı iş aparılır. Davamlı olaraq icra hakimiyyətləri yanında fəaliyyət göstərən monitorinq qrupları, müvafiq hüquq-mühafizə orqanları, zorakılığa məruz qalan qadın və uşaqlara sığınacaq verən qeyri-hökumət təşkilatları ilə əlaqəli şəkildə fəaliyyət davam etdirilir və faktlar üzrə operativ iş aparılır.

Ailələrə məsləhətimiz bundan ibarətdir ki, bu həssas durumda daha dözümlü olsunlar, bir-birilərinin qədrini bilsinlər. İnsana onun ailəsi qədər heç kim, heç nə yaxın və doğma ola bilməz. Azərbaycan ailəsində hər zaman qarşılıqlı anlaşma, valideynə, böyüyə ehtiram, ailənin hər bir üzvünə qayğı, hörmət, onlar üçün fədakarlıq kimi yüksək mənəvi keyfiyyətlər, mənəvi dəyərlər mövcud olub. Hazırkı situasiya bu xüsusiyyətlərin daha da inkişaf etdirilməsini tələb edir. Bu gün elə bir zamandır ki, hər kəs itirmək qorxusu ilə yaşayır. Sonradan peşman olmamaq üçün birbirimizin qədrini bilməliyik, sevgi və məhəbbət göstərməliyik. Çünki həm ailə, həm də dövlət olaraq biz birlikdə güclüyük!".

# Aqrar Universitetdən xeyirxah təşəbbüs: aztəminatlı ailələrə "ADAU məhsulları"






Azərbaycan Dövlət Aqrar Universitetinin Aqrar inkişaf könüllüləri "Aztəminatlı ailələrə "ADAU məhsulları" adlı növbəti xeyirxah layihəyə start verib.

Universitetin Mətbuat və ictimaiyyətlə əlaqələr xidmətindən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, layihə çərçivəsində "Evdə qal" kampaniyasına dəstək olaraq, Gəncə şəhərində yaşayan bir qrup aztəminatlı ailəyə, tənha yaşlılara universitetin tədris-təcrübə təsərrüfatında, istixanada, quşçuluq tədris mərkəzində, heyvandarlıq kompleksində istehsal olunan ekoloji təmiz tərəvəz, süd və quşçuluq məhsulları hədiyyə edilib.

Layihə karantin rejimi qüvvədə olduğu müddətdə davam etdiriləcək.

# Azərbaycan yaxın gələcəkdə tibbi ləvazimatları ixrac edən ölkəyə çevriləcək

Bu bir faktdır ki, koronavirus pandemiyası ilə əlaqədar tələbatın kəskin artması səbəbindən hazırda bütün ölkələrdə tibbi ləvazimat və qoruyucu vasitələrin, o cümlədən maskanın böyük qıtlığı yaşanır. İstehsalçı ölkələr isə tibbi maska ilə yanaşı, istehsal avadanlığı və xammalın da ixracını dayandırıblar. Lakin Azərbaycanda koronavirus pandemiyasının qarşısının alınması ilə bağlı həyata keçirilən bütün işlər Prezident İlham Əliyevin daim diqqət mərkəzində olduğundan, dövlətimizin başçısının əhalinin sağlamlığının təmin edilməsi məsələsinə xüsusi diqqətlə yanaşdığından, məhz onun tapşırığına əsasən aidiyyəti dövlət qurumları qısa müddətdə tibbi maska istehsalı avadanlığının və xammalın Azərbaycana gətirilməsinə nail olublar.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə söyləyib.

Vüqar Rəhimzadə bildirib ki, hələ iki həftə əvvəl ölkəmizdə tibbi maska istehsalına başlanılması üçün dövlətimizin başçısı tərəfindən birbaşa göstərişin verilməsi onu göstərirdi ki, Prezident İlham Əliyev koronavirus pandemiyasının xalqımızın sağlamlığına az zərər vurmasını təmin etməkdə israrlıdır. **"Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak etmələri bunu bir daha sübut etdi. Yeni açılan müəssisədə birinci mərhələdə hər gün 120 min tibbi maska istehsal edilməsi nəzərdə tutulub. Yaxın günlərdə isə istehsal həcminin 2 dəfə artırılaraq gündəlik 200-250 minə çatdırılması nəzərdə tutulur. Bu da o deməkdir ki, artıq Azərbaycan tibbi ləvazimatları idxal edən yox, onların istehsalı ilə məşğul olan və gələcəkdə ixrac edəcək ölkəyə çevrilir. Beləliklə, koronavirusla mübarizədə dünyanın bir çox ölkələrində tibbi ləvazimatlarla bağlı yaranan problemlər artıq bizim ölkəmizdə öz müsbət həllini tapır",** - deyə baş redaktor bildirib.



**"İki həftə ərzində gündəlik 250 min tibbi maska hazırlaya biləcək müəssisənin qurulması və istehsala başlanılması ölkəmizin iqtisadi qüdrətinin əyani sübutudur",** - deyən Vüqar Rəhimzadə əlavə edib ki, tibbi maska və dezinfeksiya vasitələrinin istehsalı sahəsində ölkəmizdə yaradılmış şərait bizə çox qısa zamanda daxili tələbatı yerli istehsal hesabına ödəməyimizə imkan verəcək.

# Yeni Azərbaycan Partiyası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə tənhalara, ahıllara sosial xidməti davam etdirir

Yeni növ koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Fərmanı ilə ölkəmizdə Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması və bütün cəmiyyətimizin dövlətimizin başçısının təşəbbüsünə dəstək verməsi xalqın həmrəyliyinin və dövlətinə inamının ifadəsidir.

Azərbaycan Prezidenti İlham Əliyevin çağırışına əsasən, karantin rejimi ilə əlaqədar olaraq yaşı 65-i keçmiş insanlara Yeni Azərbaycan Partiyasının (YAP) könüllüləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) sosial işçiləri ilə birlikdə martın 27-dən tənhalara, ahıl vətəndaşlara yardım paylayır, onlara sosial xidmətlər göstərirlər.

Aksiya çərçivəsində YAP-ın könüllüləri və ƏƏSMN-nin sosial işçiləri ahılların mənzillərində olur, gündəlik lazım olan ərzaq və tibbi vasitələrini onlara təqdim edirlər.









Xatırladaq ki, Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən martın 24-dən aprelin 20-dək ölkədə xüsusi karantin rejimi elan edildiyindən və bu tədbirlər çərçivəsində 65 yaşdan yuxarı şəxslərin evdən çıxması qadağan olunduğundan YAP-ın fəalları və könüllüləri bu qəbildən olan tənha yaşayan sakinlərə yardımlar edir, sosial xidmət göstərirlər.

# YAP Səbail rayon "Akademik Filarmoniya" ərazi ilk partiya təşkilatı yardım sovqatı paylayıb





Azərbaycan Dövlət Akademik Filarmoniyasının direktoru, Xalq artisti Murad Adıgözəlzadə və YAP Səbail rayon "Akademik Filarmoniya" ərazi ilk partiya təşkilanın sədri Elçin Abbasovun təşəbbüsü ilə Filarmoniyada kollektiv direktorlarının birgə iclası keçirilib.

Qəzetimizə verilən məlumata görə, iclasda karantin dövründə bir sıra ehtiyac sahiblərinə yardım edilməsi məsələsi müzakirə olunub. Müvafiq qərar əsasında Azərbaycan Dövlət Akademik Filarmoniyasının kollektivində çalışmış və hazırda çalışmaqda olan aztəminatlı ailələrə, 65 yaşdan yuxarı tənha, imkansız şəxslərə maddi köməklik və ya bir aylıq tələbata uyğun müxtəlif zəruri ərzaq məhsullarından ibarət yardım sovqatları paylanılıb.

# Paytaxtda genişmiqyaslı dezinfeksiya işləri davam etdirilir



Koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə tədbirlərinin daha da gücləndirilməsi məqsədilə Bakı şəhərinin bütün rayonlarında Nazirlər Kabinetində yanında Operativ Qərargahın qərar və təlimatlarına uyğun olaraq çoxşaxəli tədbirlər həyata keçirilir.

Bakı Şəhər İcra Hakimiyyətindən AZƏRTAC-a bildiriblər ki, Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamenti, paytaxt rayonlarının kommunal-təsərrüfat xidmətlərinin, aidiyyəti qurumlarının əməkdaşları və xüsusi texnikası tərəfindən müvafiq qrafik əsasında gündəlik olaraq səhər və axşam saatlarında küçə və prospektlərin xüsusi kimyəvi vasitələr və yeni yuyucu gel vasitəsi ilə yuyulması aparılır.

Gündə 2 dəfə departamentin balansında olan 11400-dən çox yaşayış binalarında, buradakı ümumi istifadə yerlərində, giriş blokları və pilləkən marşlarında, sakinlərin daha çox istifadə etdiyi yerlərdən olan lift kabinaları və onun ətrafı, məişət tullantılarının atıldığı konteyner meydançalarında, həyət və yaşayış məhəllələrində, buradakı idman-əyləncə qurğularında tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər görülür. Dezinfeksiya və maarifləndirmə işləri paytaxtın qəsəbələrində də aparılır.

Bu işlərin vaxtaşırı olaraq paytaxtdakı 2000-dən çox kooperativ binaların və yaşayış komplekslərində də aparılması təmin edilir.

Ərazidəki tibbi-profilaktiki işlərlə yanaşı, Bakı Şəhər Ticarət və Xidmət Departamenti və Yaşıllaşdırma Təsərrüfatı Birliyinin əməkdaşları tərəfindən paytaxtdakı idarə, təşkilat, ictimai-iaşə və digər özəl kommersiya qurumlarının inzibati binalarının, yol və küçələrin kənarlarında yaradılmış yaşıllıq guşələrinə qulluq göstərilir, ofis mərkəzləri qarşısında qoyulmuş gül dibçəklərindəki güllər sulanır.

Paytaxt rayonları icra hakimiyyətlərinin əməkdaşları, rayonlarda yaradılan Operativ Qərargahların üzvləri, könüllülər və hüquq-mühafizə orqanları əməkdaşları ərazidə mütəmadi reydlər keçirərək vətəndaşları ciddi ehtiyac olmadıqca evdən çıxmamaları, ehtiyac yarandıqda isə elektron icazə alınması qaydasında çıxa biləcəkləri barədə məlumatlandırır, Nazirlər Kabineti yanında Operativ Qərargahın son qərarları və göstərişlərinin icrası ilə bağlı əhali arasında maarifləndirmə-təbliğat işləri aparırlar.

Həmçinin RİH-lər, bələdiyyələr, könüllülər tərəfindən yaşı 65-dən yuxarı, tənha və yaşlı vətəndaşlar daim nəzarətdə saxlanılır, onlara ərzaq yardımları çatdırılır, lazımi sosial xidmətlər göstərilir.

Bütün təbliğat, maarifləndirmə, dezinfeksiya və yardımların göstərilməsi gündəlik davam etdirilir.